# Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunan elmi seminar

Gəncə Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadənin rəhbərliyi, universitetin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Filologiya fakültəsində klassik poeziyamızın parlaq nümayəndələrindən olan şairə Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyinə həsr olunan elmi seminar keçirilib.

Universitetdən verilən məlumata görə, tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib və Vətən müharibəsində canını qurban vermiş şəhidlərin əziz xatirəsi yad edilib.

Universitetin elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadənin, Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müdiri, professor Maqbet Əhmədovun, Azərbaycan dili kafedrasının müdiri, professor Telman Quliyevin, filologiya üzrə fəlsəfə doktorları Mehriban Məmmədova, Mətanət Mahmudova və tələbələrin iştirakı ilə keçirilən seminarda Xurşidbanu Natəvanın həyat və yaradıcılığı haqqında ətraflı çıxışları olub.

Bildirilib ki, Xurşidbanu Natəvanın yaradıcılığı hər zaman diqqət mərkəzində olub, xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilib. 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılıb. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusu tərəfindən torpaqlarımız işğaldan azad olunduqdan sonra əzəli məkanına qaytarılıb. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda, xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

Tədbirdə Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müəllimi Vüsal İsgəndərov və tələbələr Xurşidbanu Natəvanın qəzəllərindən nümunələr söyləyiblər.

Sonda tələbələrin hazırladığı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

**Hazırladı: Şakir CƏFƏROV**

Azərbaycan müəllimi.- 2022.- 28 oktyabr.- S.7.